# Ümumdünya Qan Donorları Günü münasibəti ilə futbol turniri




Bu günlərdə Azərbaycan Kikboksinq Federasiyası və “LAYF” İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan - Türk Futbol Klubunun meydançasında Qan Donorları arasında 1-ci açıq futbol çempionatının açılış mərasimi keçirilmişdir.

Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, millət vəkili Adil Əliyev turnir iştirakçılarına qan xəstəliyindən əziyyət çəkən insanlara dəstək verdikləri üçün təşəkkürünü bildirmişdir. Millət vəkili vurğulamışdır ki, hazırda bu layihə sayəsində qan xəstəliklərindən əziyyət çəkən yüzlərlə insan sağlamlığına qovuşmaq üçün faydalanacaq. Onlara mənəvi dəstəyiniz xəstəliklərlə mübarizədə bu insanların yaşamaq eşqini artıracaqdır.

“Toyota” şirkətinin Azərbaycan Nümayəndəliyinin baş direktoru Mustafa Abbasbəyli isə çıxışında AKF-nin və “LAYF” Xeyriyyə İctimai Birliyinin yarandığı gündən indiyədək könüllü donorların cəlb edilməsilə bağlı gördükləri işləri təqdirəlayiq hesab etdiyini bildirmişdir.

O, qeyd etmişdir ki, bu cür layihələrin həyata keçirilməsi cəmiyyətdə insanların maariflənməsinə, verəcəyi qanın kiməsə həyat bəxş etməsinin önəmini və diqqətdə saxlanmasını öyrədək. Verəcəyimiz hər damla qan həyat deməkdir. Bu bir damlanı onun yolunu gözləyənlərdən əsirgəməyin.

Tədbirin sonunda “LAYF” Xeyriyyə İctimai Birliyinin direktoru Emil Vəliyev tədbir iştirakçılarına donorluq etdikləri üçün təşəkkürünü bildirmişdir. O, qeyd etmişdir ki, bu cür layihələrin həyata keçirilməsində ölkədə fəaliyyət göstərən müxtəlif şirkətlər, eyni zamanda təşkilati dəstək vermələri ilə yanaşı, kollektivləri ilə birgə donor olaraq qan vermə kampaniyasında da iştirak etmişlər. 14 iyun Ümumdünya Qan Donorları Günü münasibəti ilə qan donorları arasında iyunun 6-dan 12-dək keçirdiyimiz futbol turniri, əhalinin maariflənməsi, qan xəstəliklərinin isə cəmiyyətin onlara etinasız qalmadıqlarını, daim diqqət göstərildiyini hiss etmələri üçündür.

Futbol turnirində 16 qan donoru olan komandaları Azərbaycan Kikboksinq Federasiyası da daxil olmaqla “Toyota Baku” şirkəti, “Atəşgah Sığorta”, “Bakı Metropoliten” QSC, “Net Frame” MMC, Azərbaycan Qızıl Aypara Cəmiyyəti, “Standart İnsurance” sığorta şirkəti, “Parabank” ASC-nin Yasamal filialı, “Nikoyl bank” ASC, “Murov” Ekstremal idman klubu, “Paşa” Sığorta”, “City Hospital”, “LAYF” Xeyriyyə İctimai Birliyi, Diaspor jurnalistlər birliyi, “Mr. Fix” MMC, “LAWERS UNİTED” hüquqçulardan ibarət komandalar yarışda iştirak etmişlər.

Qan Donorları I Açıq Futbol Çempionatının iştirakçılarına plaketlər təqdim olunmuşdur.

Üç gün davam edən futbol çempionatında “Mr. Fix” MMC I yerə, “Bakı Metropoliteni” QSC II yerə, Azərbaycan Kikboksinq Federasiyası isə III yerə layiq görüldü.

Qaliblərə mükafatla təltif olundular.

**Rauf İLYASOĞLU, “Respublika”.**
**Fotolar: Mahir HÜSEYNOVUNDUR.**